

**Rahim ÜÇOĞLANLI (Rzayev)**

## KÖNLÜMDƏ EL BOYDA XALIM VAR MƏNİM

Qara bulud, başım üstdən çəkil get,
Gün dəysin yetişim, kalım var mənim.
Qaranlıq dalana düşüb qalmışam,
Hələ gedilməmiş yolum var mənim.
* * *
Mən də bir buludam, sanma suyum yox,
Boşuna səpmərəm çünki, gözüm tox,
Sən yağma, özümün ehtiyyatım çox,
Nə qədər leysanım, dolum var mənim.
* * *
Rahiməm, saçıma həsrət salıb dən,
Dağımı sis duman, dərəm alıb çən,
Vətəndə vətənsiz yaşayıram mən,
Könlümdə el boyda xalım var mənim.